## Qarabağın görkəmli simaları

# Süleyman Rəhimov (1900-1983)



***Azərbaycan-sovet yazıçısı, nasiri, siyasətçisi, 1938-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR xalq yazıçısı (1960), Sosialist Əməyi Qəhrəmanı (1975) Süleyman Hüseyn oğlu Rəhimov 1900-cü ilin 22 martında Zəngəzur mahalının (hazırkı Qubadlı rayonu) Əyin kəndində anadan olmuşdur. İbtidai təhsilini ikisinifli rus məktəbində almışdır. İlk təhsilini kənddə almış, sonralar texnikum və ali məktəb bitirmişdir. 1921-ci ildə Xanlıq kəndində yeni açılmış məktəbdə müəllim işləməyə başlamışdır. Şuşada pedaqoji kursda oxuduqdan sonra uzun müddət Zəngəzur mahalının müxtəlif rayonlarında müəllimlik etmişdir.***

1928-ci ilin payızında dostu Əli Vəliyevlə Bakıya gələrək, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almış, eyni zamanda Qaraşəhərdə ikinövbəli savad kursunda yaşlı fəhlələrə dərs demişdir. 1931-ci ildə təhsilini bitirmişdir.

Ədəbi fəaliyyətə 1930-cu ildən başlayan Süleyman Rəhimovun ilk əsəri "Şamo"dur. Bununla belə, o, 50 il bu əsərinin üzərində işləmiş və ona əlavələr etmişdir. Onun ən tanınmış əsərlərindən biri də "Qara torpaq və sarı qızıl"-dır. İndi bu əsər 5-ci sinif ədəbiyyatlarında istifadə olunur.

Süleyman Rəhimov 1939-1940, 1944-1946 və 1954-1958-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur. Azərbaycanın Laçın, Samux, Şahbuz və Noraşen rayonlarında rəhbər partiya işlərində çalışmışdır (1934-1937). Azərbaycan K(b)P Bakı şəhər komitəsində təbliğat üzrə katib (1940–1941), Azərbaycan K(b)P MK-da təbliğat və təşviqat şöbəsinin müdir müavini (1941-1944), Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif işləri Komitəsinin sədri (1945-1958) vəzifələrində işləmişdir.

S.Rəhimov yeni dövr Azərbaycan ədəbiyyatında nəsrin inkişafı sahəsində misilsiz xidmətləri olan yazıçıdır. Əsasən romançı kimi tanınıb. 30-cu illərdə Azərbaycan romanının təşəkkülü və inkişafı onun adı ilə bağlıdır. **"Şamo" və "Saçlı"** kimi çoxcildli romanların, **"Aynalı"**, **"Qardaş qəbri"**, **"Su pərisi"**, **"Uğundu"** və s. əsərlərin müəllifidir. S.Rəhimov **"Şamo"** romanı ilə ədəbiyyata gəlmiş və 50 ilə yaxın bu əsərin üzərində işləmişdir.

Azərbaycan nəsrində Süleyman Rəhimovun əsərlərinə bugünün prizmasından diqqət yetirəndə böyük yazıçıların da zamanın təzyiqindən kənara çıxa bilməməsi diqqət çəkir. Süleyman Rəhimov seçdiyi ədəbi qəhrəmanlara təkcə istedadının deyil, həm də dövrün prinsipləri əsasında yanaşmaq məcburiyyətində olub. Ermənilərə qan udduran, milli mənafe uğrunda savaşa qalxan, bu gün də haqqında nəinki təkcə Zəngəzurda, bütövlükdə Azərbaycanda danışılan qeyrətli vətən oğlunun - Sultan bəyin "Şamo"da mənfi obraza çevrilməsi dövrün tələbi idi. Sovet quruluşu yazıçıdan məhz əsl bəylərin üstündən qara xətt çəkib, guya xalq içindən çıxmış süni qəhrəman yaratmağı tələb edirdi. Buna görə də Sultan bəylər xalqa çox eybəcər şəkildə təqdim edilir, süni surətdə uydurulmuş obrazlar zirvəyə qaldırılırdı.

***Şamo adi çoban oğlundan məşhur inqilabçıya qədər bir ömür yolu keçir. Guya haqq-ədalət uğrunda mübarizəyə qoşulur. Cəngavər bir igidin inandığı yanlışlıq onun nakam ölümü, həlak olması ilə nəticələnir. Bəlkə də böyük sənətkarımızın uzaqgörənliyi idi ki, bütün çarpışmaların, inqilabların sonu uçurumdur, məğlubiyyətdir. Müsbət qəhrəmanlar - partizanlar, inqilabçılar müxtəlif vaxtlarda həlak olurlar. "Mənfi" surətlər, məsələn, elə Sultan bəy xaricə qaçır.***

Süleyman Rəhimov 1983-cü il oktyabrın 11-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.